

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 98 (23.260)

25 may 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Rusiya Federasiyasının Əmək və Sosial Müdafiə naziri Maksim Topilini qəbul edib.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, sosial təminat sahəsində əlaqələr, təcrübə mübadiləsi məsələləri müzakirə edilib.

Görüşdə Rusiyada və Azərbaycanda sosial sahənin müxtəlif istiqamətləri ilə bağlı həyata keçirilən islahatlardan danışılıb, təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkanların olduğu qeyd edilib. Eyni zamanda Maksim Topilinin səfəri zamanı müvafiq nazirliklər arasında imzalanacaq sazişin əhəmiyyətinə toxunulub.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



## 28 May – Respublika Günü qeyd edilib



*Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyində 28 May – Respublika Gününə həsr olunmuş tədbir keçirilib.*

Tədbirdə çıxış edən daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov qeyd edib ki, Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini göstərib. Ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti çətin tarixi şəraitdə üzərinə götürdüyü missiyanı şərəflə yerinə yetirib, Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı, milli ordusu təşkil edilib, müstəqil dövlətçilik atributları – bayraq, himn və gerb yaradılıb, Azərbaycan dili dövlət dili elan edilib, pul və poçt markaları dövriyyəyə buraxılıb. Milli iqtisadiyyatın, təhsil, səhiyyə və mədəniyyətin inkişafı ilə bağlı əhəmiyyətli qərarlar qəbul olunub.

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin rəhbəri çıxışında vurğulayıb ki, görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra dövlət müstəqilliyimiz daha da möhkəmlənib. Azərbaycan sübut edib ki, Şərqdə və müsəlman aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisidir, onun davamçısıdır.

Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki yeri və rolundan bəhs edən Bəxtiyar Əsgərov Naxçıvanın odövrkü vəziyyətinə də xüsusi diqqət yetirib. Bildirib ki, həmin dövrdə Naxçıvan həm daxildə, həm də beynəlxalq aləmdə müxtəlif maraqların toqquşduğu ərazilərdən birinə çevrilmişdi. Ermənilərin Naxçıvana hücumları isə vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Belə bir ictimai-siyasi şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvan məsələsində tutduğu mövqe və ərazinin qorunması ilə bağlı Naxçıvan sakinlərinin mütəşəkkil siyasi iradəsi sonrakı dövrdə bu diyarın Azərbaycanın tərkibində muxtariyyət statusu qazanmasında mühüm əhəmiyyət kəsb edib.

Nümayəndəliyin rəhbəri qeyd edib ki, xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan dövlətini yaradıb. Azərbaycan Respublikası Xalq Cümhuriyyətindən fərqli olaraq mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumağı və möhkəmləndirməyi bacarıb, dövlətçiliyin gələcəyi naminə qətiyyətli tədbirlər görülüb. Dahi şəxsiyyət Heydər Əliyevin böyük siyasi təcrübəsi, qətiyyəti və misilsiz xidmətləri nəticəsində Azərbaycan nəinki öz müstəqilliyini qoruyub, həmçinin Azərbaycan Xalq Cümhuriyyəti ilə müstəqil Azərbaycan Respublikası arasında varislik əlaqəsini təmin edib. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi müasir Azərbaycanın dövlətçilik yolunu bu gün Prezident cənab İlham Əliyev uğurla davam etdirir.

**AZƏRTAC**

* * *



Naxçıvan Dövlət Universitetində bu münasibətlə keçirilən tədbirdə əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək 1918-ci il mayın 28-də müsəlman Şərqində yaradılan və xalqımızın dövlətçilik tarixində misilsiz rolu olan ilk demokratik, parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətindən danışıb.

Vurğulanıb ki, 1993-cü ildə xalqımızın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun cəsarəti sayəsində Azərbaycanın müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə, xalqımızın firavanlığına və ölkənin davamlı inkişafına xidmət edən siyasi kursun həyata keçirilməsinə başlanılıb. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə siyasi-hüquqi qiymət verilib, ilk müstəqil dövlətimizin rəmzləri bərpa olunub. Rektor tarixi gün münasibətilə konfrans iştirakçılarını təbrik edib və tariximizi tanıtmaq istiqamətində gəncləri daha da fəal olmağa səsləyib.

"Azərbaycan Xalq Cümhuriyyəti – şərəf və ləyaqət tariximiz" adlı çıxışında tarix üzrə fəlsəfə doktoru Abdulla Mustafayev Azərbaycan Xalq Cümhuriyyəti tarixini xalqımızın şərəf salnaməsi adlandıraraq ilk demokratik respublikamızın yaradılmasından süqutuna qədər olan tarixi mərhələlər, cümhuriyyət qurucularının fəaliyyətləri barədə ətraflı məlumat verib.

Tədbir İncəsənət fakültəsi tələbələrinin ifasında konsert proqramı ilə davam edib.

**Səadət ƏLİYEVA**

## Tələbələr Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində olublar



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində olublar. Onlar Ali Məhkəmədə keçirilən məhkəmə proseslərində iştirak edib və iş prosesini əyani şəkildə öyrəniblər.

Ali Məhkəmənin sədri Qasım Əliyev tələbələrlə görüş zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan hüquqi islahatların tərkib hissəsi kimi hüquq-mühafizə orqanlarında çalışacaq yüksək peşəkarlığa malik, layiqli və humanist kadrların formalaşdırılmasının vacibliyini vurğulayıb. Qasım Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının gələcəyin peşəkar, yüksək səriştəli kadrlarının yetişdirilməsi istiqamətində atılmış əhəmiyyətli addımlardan biri olduğunu bildirib.

Qeyd edilib ki, Ali Məhkəmədə "İdeyadan başlanğıca" devizi altında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin – startapların həyata keçirilməsi və dəyərləndirilməsi məqsədilə ekspert qrupu yaradılıb.

Ali Məhkəmənin sədri belə tədbirlərin gələcəkdə də davam etdiriləcəyini diqqətə çatdırıb.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti**

## "Qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti institutları kimi" mövzusunda tədbir keçirilib



*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) aparatının birgə təşkilatçılığı ilə Ədliyyə Nazirliyində "Qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti institutları kimi" mövzusunda tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat şöbəsinin rəisi, ədliyyə müşaviri Səyyub Kərimov açaraq bildirib ki, ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra vətəndaş cəmiyyətinin fəaliyyəti ilə əlaqədar zəruri qanunvericilik bazası yaradılıb. 2000-ci ildə "Qeyri-hökumət təşkilatları ictimai birliklər və fondlar haqqında" yeni Qanun qəbul edilib.

Vurğulanıb ki, müasir dövrdə qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti quruculuğu və ölkənin demokratikləşməsi prosesinin vacib institutlarından birinə çevrilib. Müstəqil Azərbaycan dövlətinin dünya birliyində layiqli yer tutması, sürətli və dinamik inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin işləyib hazırladığı mükəmməl, siyasi və iqtisadi konsepsiyalara, mərhələ-mərhələ reallaşdırdığı demokratik, hüquqi və iqtisadi islahatlara söykənir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) aparatının İnsan hüquqlarının müdafiəsi şöbəsinin müdiri Abil Orucəliyevin "Qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti institutları kimi", Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik bölməsinin rəisi, ədliyyə müşaviri Ayaz Məhərrəmovun "Qeyri-hökumət təşkilatlarının fəaliyyətini tənzimləyən qanunvericiliyin tələbləri", Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat şöbəsinin rəisi, ədliyyə müşaviri Səyyub Kərimovun "Qeyri-hökumət təşkilatlarının fəaliyyəti: vəzifələr və məsuliyyət" mövzularında çıxışları dinlənilib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə "Məhkəmə Ekspertizasının aktual məsələləri" mövzusunda Məhkəmə Ekspertizası Mərkəzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi, Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun əməkdaşlarının iştirakı ilə praktik seminar da keçirilib.

**Pərviz HACILI**

# Günnüt zəfərindən 1 il ötür

*Düz bir il bundan əvvəl, mayın 20-27-si tarixləri arasında Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları nəticəsində Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklər işğaldan azad edildi. Bununla da ordumuz daha əlverişli mövqelərə sahibləndi, Xunut dağı və Ağbulaq yüksəkliyi, daha sonra isə Qızılqaya dağı və Mehridağ, Dərələyəz mahalının Arpa kəndi işğaldan azad edildi. Ümumilikdə, 11 min hektara yaxın ərazi nəzarət altına alındı. Bu ərazinin isə 8 min hektardan artığı əkin üçün, xüsusilə dəmyə əkinçiliyi üçün yararlı ərazilərdir.*





Dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin düşməndən azad edilməsinin ən böyük strateji əhəmiyyəti ordumuza Şərur rayonunun Günnüt kəndi ilə yanaşı, İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna da nəzarət etməyə imkan verməsi oldu. Həmin vaxt ərazinin etibarlı müdafiəsi və təminat məqsədilə 50 kilometr yeni yol çəkildi, 60 kilometrdən artıq yararsız yollar isə bərpa edildi. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri quruldu.

Ötən il iyulun 3-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Günnüt kəndinə gedərək ön xətdə yerləşən postlarda şəxsi heyətlə görüşdü, göstərdikləri şücaətə görə əsgər və zabitləri təbrik edərək onlara hədiyyələr təqdim etdi. Ali Məclisin Sədri dayaq məntəqələrində xidmət aparan hərbi qulluqçularla görüşündə demişdir: ***“Vaxtilə bu ərazilər ermənilər tərəfindən işğal olunmuş, Günnüt kəndində yaşayış yerləri dağıdılmışdır. Lakin uğurlu əməliyyatlardan sonra 10 min hektardan artıq əkinəyararlı torpaqlar nəzarət altına keçmişdir. Bu, Azərbaycan Ordusunun gücünün və şəxsi heyət arasındakı ruh yüksəkliyinin göstəricisidir. O ordu güclü deyil ki, onun çoxlu silah-sursatı vardır. O ordu güclüdür ki, onun əsgərlərinin döyüş ruhu yüksəkdir. Keçirilən əməliyyatlar Azərbaycan Ordusunun döyüş ruhunu göstərdi. İtki verilmədən torpaqlarımız geri alındı”.***

2018-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrin yaranmasının 100 illiyi ərəfəsində Günnüt zəfərinin qazanılması milli ordumuzun xalqımıza ən böyük hədiyyəsi oldu. Silahlı Qüvvələrin 100 illiyi münasibətilə keçirilən hərbi paradda Ali Baş Komandan, cənab İlham Əliyev demişdir: ***“Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur”.***

Bəli, Günnüt əməliyyatı illərdir, “qüdrətli” erməni ordusu haqqında aparılmış təbliğatı yerə vurdu. 2016-cı ilin Aprel döyüşlərindən sonra ordumuzun Naxçıvan istiqamətində belə bir uğurlu əməliyyata imza atması Azərbaycan əsgərinin gücünü bir daha göstərdi. Ali Məclis Sədrinin dediyi kimi, keçirilən hərbi əməliyyatlar onu deməyə əsas verir ki, muxtar respublikada torpaqlarımızı etibarlı müdafiə edən və hər an işğal altındakı torpaqlarımızı azad etməyə qadir olan güclü ordu formalaşıb. Bu yaxınlarda Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir.

Xatırladaq ki, ötən əsrin sonlarına doğru ölkəmizin digər bölgələri kimi, muxtar respublikamızın Şərur rayonunun Sədərək, Günnüt, Havuş və Şahbulaq kəndləri də mütəmadi olaraq atəşə tutulur, düşmən hücumlarına məruz qalırdı. Şərur rayonunun mərkəzindən 22 kilometr uzaqda yerləşən Günnüt kəndi də elə həmin vaxt – 1992-ci ildə işğala məruz qalmışdı. Erməni vandalları kəndi xarabalığa çevirərək yaşayış evlərini, məktəbi, tibb məntəqəsini, hətta xalqımıza məxsus izləri itirmək üçün qəbiristanlığı və məscidi də dağıdıb yerləyeksan etmişdilər. Həmin vaxt Günnüt kəndinin sakinləri rayonun digər yaşayış məntəqələrinə, əsasən də, Mahmudkəndə köçməyə məcbur olmuşdular. Kəndin azad edilməsindən sonra günnütlülər doğma kəndlərinə gedərək burada atababalarının məzarlarını ziyarət etmişlər.

Günnüt kəndində tarixən kənd təsərrüfatı inkişaf etdirilib. Yaşayış məntəqəsi işğaldan azad edildikdən sonra arıçılığın inkişafı üçün də burada zəruri şərait yaradılıb.

Bu yurd yerində, həmçinin milli dəyərlərimiz də qorunub saxlanılıb. Vaxtı ilə bu kənddə xalçatoxuma işi geniş yayılıb. Ötən il iyulun 18-də Naxçıvan Dövlət Xalça Muzeyində “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti tərəfindən vaxtilə Günnüt kəndində toxunmuş xalçaların təqdimatı oldu. 19-cu əsrin sonlarına və 20-ci əsrin əvvəllərinə aid olan bu xalçaların üzərində qədim oğuz türklərinə məxsus naxışlar bir daha Günnütdə bu xalq sənəti nümunələrinin uzun müddət yaşadıldığını göstərir. Bundan əlavə, ötən il Azərbaycanın “Buta Airways” aviaşirkəti tərəfindən alınmış “Embraer E-190” təyyarəsinə də “Günnüt” adı verildi. Dünya təcrübəsində təyyarələrin böyük şəhərlərin və şəxsiyyətlərin adı ilə adlandırılması ənənəsi mövcud olsa da, ilk dəfə Azərbaycanda yeni alınan təyyarəyə kənd adı verilmişdir. Bunları xatırlamaqda məqsəd odur ki, ötən il ordumuzun əldə etdiyi Günnüt zəfəri “Günnüt” adının yaddaşlarımızda uğur, qalibiyyət rəmzi kimi xarakterizə olunmasına imkan vermişdir. Günnüt, eyni zamanda Azərbaycanımızın hələlik digər işğal altında qalan torpaqlarına gedən yolun başlanğıcıdır. İnanırıq ki, Silahlı Qüvvələrimiz qısa müddətdə bu sevinci də bizə yaşadacaq.

✍ **Səbuhi HƏSƏNOV**

# Ordubadlı nümunəvi ailə təsərrüfatlarının iş təcrübələri muxtar respublikada yayılır



*Ordubad rayonunda fəaliyyət göstərən ailə təsərrüfatlarının iş təcrübələrinin muxtar respublikada geniş tətbiq edilməsi ilə əlaqədar rayon mərkəzinin tədbirlər meydanında tədbir keçirilib.*

Tədbirdə muxtar respublikanın şəhər və rayon İcra hakimiyyətləri başçıları, aidiyyəti nazirlik və komitə təmsilçiləri və rayonların 167 qabaqcıl ailə təsərrüfatı başçısı iştirak edib. Ordubad rayonunun nümunəvi ailə təsərrüfatı başçıları – Əlhi kənd sakini Yaşar Həbibov 33, Dırnıs kənd sakini Sadiq Möhsümov 25, Vənənd kənd sakini Xalid Mayılov 31, Yuxarı Əndəmic kənd sakini Aslan Rüstəmov 20, Tivi kənd sakini Xəqani Cəfərov 18 adda və başqaları müxtəlif çeşidli mürəbbələr, turşular, şirniyyatlar, qurudulmuş meyvələr, dərman bitkilərindən istehsal edilmiş müalicəvi araqlar, keçi pendiri, şorkərə, süzmə qatıq, doşablar və digər yüksəkkeyfiyyətli məhsullarla tədbirdə iştirak ediblər.

Əvvəlcə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək ailə təsərrüfatlarının fəaliyyəti haqqında ətraflı məlumat verib. Bildirilib ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında 2019-cu il muxtar respublikada “Ailə təsərrüfatları ili” elan edilib, Ali Məclis Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı” təsdiq olunub.

Vurğulanıb ki, muxtar respublikamızda daxili bazarın yerli keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsində xüsusi payı olan ailə təsərrüfatlarının inkişafı istiqamətində dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilir, ailə təsərrüfatlarının yaradılmasına, onların fəaliyyətlərinə hərtərəfli qayğı göstərilir. Belə qayğı ailə təsərrüfatlarının sayının artması ilə yanaşı, ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar açır. Bu cür təsərrüfatlar Ordubad rayonunda da çoxdur.

Vurğulanıb ki, Ordubad rayonunun ailə təsərrüfatlarında 1611 hektar payız, 1689 hektar yaz əkini sahələri, 720 hektar meyvə bağı, 13 min 745 arı ailəsi, 10 min 258 baş iribuynuzlu, 81 min 375 baş xırdabuynuzlu, 145 min 678 baş təsərrüfat quşları mövcuddur. Ailə təsərrüfatlarında lizinq yolu ilə alınmış 138 ədəd müxtəlif təyinatlı maşın və mexanizmlərdən istifadə edilir.

“Son illərdə yeni meyvə bağlarının salınması, Əylis düzündə 10 hektar sahədə qızılgül kollarının əkilməsi, rayonda meyvəçiliyin, heyvandarlığın, arıçılığın, bostançılıq və tərəvəzçiliyin inkişafı aqrar sahəyə dövlət tərəfindən göstərilən qayğının ifadəsidir”, – deyən Elşad Məmmədov tədbirin təşkili üçün rayonun ailə təsərrüfatları adından minnətdarlığını bildirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev “Muxtar respublikada ailə təsərrüfatlarına dövlət dəstəyi: reallıqlar və perspektivlər” mövzusunda çıxış edib. Bildirilib ki, Ordubad rayonunda təşkil edilən bu tədbirin məqsədi nümunəvi ailə təsərrüfatlarının iş təcrübələrinin muxtar respublikanın bütün rayonlarında fəaliyyət göstərən ailə təsərrüfatlarına aşılanmasıdır.

Nazir diqqətə çatdırıb ki, muxtar respublikada əhalinin zəruri ərzaq məhsulları ilə təmin olunması məqsədilə bir çox dövlət proqramları qəbul edilərək uğurla icra olunur. Hazırda icrası davam etdirilən “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” və “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” muxtar respublikada aqrar sahənin inkişafına öz töhfəsini verməkdədir.





Vurğulanıb ki, son illərdə muxtar respublikada istehsal olunan məhsulların festivallarının təşkili ənənə halını alıb. “Göycə”, “Kətə”, “Arıçılıq məhsulları – bal” və “Ailə təsərrüfatı məhsulları” festivalları istehsalçılar və istehlakçılar tərəfindən yüksək dəyərləndirilib, müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalına marağı daha da artırıb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov bildirib ki, 1 yanvar 2019-cu il tarixə muxtar respublikada 205 kəndi özündə birləşdirən 159 kənd inzibati ərazi dairəsində 83 min 193 təsərrüfat qeydə alınıb. Onların 45 mindən çoxu bitkiçilik və heyvandarlıqla, o cümlədən 3775-i arı ailələrinin saxlanması, 500-dən çoxu isə istehsal və emal fəaliyyəti ilə məşğul olan təsərrüfatlardır. Naxçıvan Muxtar Respublikasında 2019-cu ilin I rübündə 500-dən çox ailə təsərrüfatında 2200-ə yaxın ailə üzvü qeydiyyata alınıb. Ailə təsərrüfatlarında istehsal olunan məhsulların statistik təsnifatı üzrə 32 çeşiddə istehsal olunub və satılmış məhsul növləri müəyyən edilib.

Tədbirdə çıxış edən nümunəvi ailə təsərrüfatı başçıları – Ordubad rayonunun Əlhi kənd sakini Yaşar Həbibov, Dırnıs kənd sakini Sadiq Möhsümov, Tivi kənd sakini Xəqani Cəfərov muxtar respublikada ailə təsərrüfatlarının inkişafına göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın icrası istiqamətində girovsuz qaydada güzəştli faizlərlə 6 ailə təsərrüfatı başçısına kreditlər verilib. Kredit alanlar ailə təsərrüfatlarının inkişafına yaradılan şəraitdən razılıqlarını bildirərək minnətdarlıq ediblər.

Tədbirin gedişi zamanı Ordubad Rayon Mədəniyyət Sarayının musiqi kollektivlərinin çıxışları iştirakçılarda xoş ovqat yaradıb.

✍ **Muxtar MƏMMƏDOV**

# V Naxçıvan Beynəlxalq Arıçılıq Konfransı

Naxçıvan Dövlət Universitetində keçirilən konfransda muxtar respublikada arıçılıqla məşğul olan iri təsərrüfat sahibləri, Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyi, AMEA Zoologiya İnstitutu, Azərbaycan Baytarlıq Elmi-Tədqiqat İnstitutu, Azərbaycan Dövlət Aqrar Universiteti, Türkiyənin Bursa Uludağ Universiteti, Azərbaycan Baytarlıq Elmi-Tədqiqat İnstitutu, Azərbaycan Peşəkar Arıçılar Birliyi, Gəncə Dövlət Universiteti, ARTN-nin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun “Arıçılıq” Mərkəzi, AMEA Naxçıvan Bölməsi, Kənd Təsərrüfatı Nazirliyi və Baytarlıq Xidmətinin əməkdaşları iştirak ediblər.

Konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, muxtar respublikada kənd təsərrüfatının digər sahələri kimi arıçılığın da inkişafı dövlət qayğısı ilə əhatə olunub. Bu sahə ilə məşğul olan sahibkarlara dövlət tərəfindən güzəştli kreditlər verilir, arıçılıq məhsullarının idxal və ixracına əlverişli şərait yaradılır.

Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı naziri Bəhruz Bayramov “Muxtar respublikada arıçılığın müasir vəziyyəti və inkişaf perspektivləri” mövzusunda çıxış edib. Çıxışda qeyd edilib ki, arıçılığın inkişafı üzrə aparılan çoxsaylı tədbirlər nəticəsində 1 yanvar 2019-cu il tarixə muxtar respublikada 72 min 350 arı ailəsi mövcud olub ki, bu da 2008-ci ilin sonu ilə müqayisədə 2,5 dəfə çoxdur.

Türkiyənin İqdır Universitetinin Kənd təsərrüfatı fakültəsinin dosenti Hakkı Akdeniz arıçılığın ən mühüm problemləri, Azərbaycan Dövlət Pedaqoji Universiteti, biologiya elmləri doktoru, professor Rauf Sultanov mövcud arı xəstəlikləri haqqında məlumat veriblər.

Sonra konfrans bölmə iclasları ilə davam etdirilib.

Konfransın sonunda arıçı mütəxəssislərə sertifikatlar təqdim olunub.

Sonra muxtar respublikanın arıçılıq təsərrüfatları və emal müəssisələri ilə tanışlıq olub.

**Səadət ƏLİYEVA**

*Naxçıvan dünya mətbuatında*

## Çili mətbuatında Naxçıvanla bağlı yazı dərc olunub




*Çilinin geniş oxucu kütləsinə malik epicentrochile.com xəbər saytında Azərbaycan diplomatik missiyasının müvəqqəti işlər vəkili Yasin Cəfərovun Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş "Azərbaycanın tarixi şəhəri Naxçıvan" başlıqlı məqalə yayımlanmışdır.*

Məqalədə muxtar respublika barədə geniş məlumat verilərək Naxçıvanın tarixən qədim İpək Yolu üzərində yerləşdiyi, Şərq və Qərb arasında ticarət yollarını və sivilizasiyaları birləşdirdiyi, "Şərqin qapısı" adlandırıldığı qeyd olunur. Bu il 95 illik yubileyini qeyd edən Naxçıvan Muxtar Respublikasında zəngin mədəniyyəti əks etdirən qədim tarixi abidələrin, o cümlədən əzəmətinə və bənzərliyinə görə Azərbaycanın "Maçu Piççu"su adlandırılan, Azərbaycan xalqının qəhrəmanlıq simvolu hesab edilən Əlincə qalasının, xalq inanc və toponimlərindən əlavə Qafqazın bir çox tədqiqatçılarının əsərlərində də bəhs olunan Nuh Peyğəmbərin məzarüstü türbəsinin burada yerləşdiyi bildirilir.

Azərbaycanda qadına hörmətin, onun ictimai-siyasi həyatda rolunun tarixən var olduğunu sübut edən, Azərbaycan Atabəylər dövlətinin ictimai-siyasi həyatında mühüm rol oynamış Möminə xatının şərəfinə 12-ci əsrdə ucaldılmış, YUNESKO-nun Qeyri-maddi Mədəni irs Siyahısına salınmış Möminə xatın türbəsindən bəhs edilərək ölkədə bu dəyərin tarixən qorunub saxlanıldığını və Azərbaycanın 1918-ci ildə qadınlara seçki hüququ verən dünyanın ilk dövlətləri sırasına düşməsinin heç də təsadüfi olmadığı vurğulanır. Məqalədə, həmçinin muxtar respublikanın turistik məkanlarından, o cümlədən Ağbulaq və Batabat istirahət mərkəzləri, Duzdağ Fizioterapeya Mərkəzindən bəhs olunur. 2018-ci ildə İslam Əməkdaşlıq Təşkilatı tərəfindən Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı elan olunduğu, həmçinin Azərbaycanın Gənclər Paytaxtı seçilməsi münasibətilə ötən il Naxçıvanda bir çox beynəlxalq və yerli tədbirlərin, festivalların keçirildiyi bildirilir. Eyni zamanda zəngin mədəni ənənələrə malik Naxçıvanın ənənəvi qrup rəqsi olan "Yallı (Köçəri, Tənzərə)"nin YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edildiyi qeyd olunur.

Müəllif Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, sənaye və kənd təsərrüfatı potensialından bəhs edir, digər məhsullarla yanaşı, məşhur "Badamlı", "Sirab" müalicəvi mineral sularının, Naxçıvan duzunun, "Naz Lifan" markalı avtomobillərin dünya bazarlarında öz layiqli yerini tutduğunu diqqətə çatdırır. Cənubi Qafqaz regionunun ən böyük Günəş Elektrik Stansiyasının Azərbaycanın Naxçıvan Muxtar Respublikasında yerləşdiyi vurğulanaraq alternativ enerji mənbələrinə malik olan muxtar respublikanın həm də elektrik enerjisi ixrac etdiyi bildirilir.

Məqalədə muxtar respublikada müasir ali təhsil müəssisələrinin fəaliyyət göstərdiyi və burada xarici tələbələrin də təhsil aldığı qeyd olunur, çilili gənclərin də müxtəlif təhsil təqaüdü proqramları çərçivəsində Naxçıvanda təhsil almaq imkanlarının olduğu bildirilir. Sonda isə Azərbaycan Hökuməti tərəfindən yaradılan "ASAN viza" sistemi vasitəsilə dünyanın yüzə yaxın ölkəsinin, o cümlədən Çili vətəndaşlarının asan və rahat şəkildə Azərbaycan vizası əldə etmə imkanının olduğu vurğulanır. Xüsusilə Şərq və Qərb sivilizasiyaları ilə eyni anda tanış olmaq üçün Çili vətəndaşlarına Azərbaycanın Naxçıvan Muxtar Respublikasına səyahət etmək tövsiyə olunur.

## *"Gələcəyin İKT sahəsindəki toxumları"* adlı dördüncü proqram-layihə üzrə seçim turu keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamına əsasən muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi, eləcə də onun tabe qurumlarında praktik işlərə cəlb olunur, istehsalat təcrübələri keçirlər. Tələbələrin müxtəlif layihələr vasitəsilə təqaüd proqramlarında iştirakı və xaricə göndərilmələrinin təşkil edilməsi bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır.



Nazirlik ilə Çin Xalq Respublikasının "Huawei" şirkəti arasındakı əməkdaşlıq çərçivəsində muxtar respublikada "Gələcəyin İKT sahəsindəki toxumları" adlı dördüncü proqram-layihənin seçim turu keçirilib. Proqram-layihə çərçivəsində komissiya üzvləri müsabiqədə iştirak etmiş 12 nəfər tələbədən informasiya-kommunikasiya texnologiyaları sahəsində biliyə malik olan və ingilis dilində kifayət qədər özünü təqdimetmə bacarığı olan ən yaxşı 6 tələbəni seçib. Həmin tələbələr bu ilin iyul ayında Çin Xalq Respublikasının "Huawei" şirkətinə 2 həftəlik istehsalat təcrübəsinə göndəriləcəklər.

Çin Xalq Respublikasına istehsalat təcrübəsinə göndərilən tələbələr proqram çərçivəsində "Huawei" şirkətinin Şenjen şəhərində yerləşən baş ofisinin treninq mərkəzində müasir texnologiyaların öyrənilməsi və istehsalı üzrə təlimlər keçəcəklər. Tələbələrin ən qabaqcıl texnologiyalar haqqında ətraflı məlumat əldə etməsi məqsədini daşıyan təcrübə kursu şirkətin ayrı-ayrı peşəkar mütəxəssisləri tərəfindən aparılır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Pedaqoji təcrübənin yekununa həsr edilmiş konfrans



Naxçıvan Müəllimlər İnstitutunda keçirilən konfransı giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev açaraq müasir dünyagörüşünə, yüksək intellektual səviyyəyə və praktik iş qabiliyyətinə malik, yeni texnologiyalardan istifadə etməyi bacaran gənc kadrların cəmiyyətin inkişafındakı rolu haqqında danışıb.

İnstitutun pedaqoji təcrübə rəhbəri Təranə Əliyeva çıxışında pedaqoji təcrübənin səmərəliliyi haqqında görülən məqsədyönlü işlərdən ətraflı bəhs olunub.

Sonra Pedaqoji fakültənin dekanı dosent Arif Ağalarovun, Təbiət və incəsənət fakültəsinin dekanı, dosent Rövşən Vəliyevin hesabatları dinlənilib.

Konfransda iştirak edən məktəb direktorları və bağça müdirləri rəhbərlik etdikləri təhsil ocaqlarında təcrübənin təşkili və təcrübəçi tələbələrin fəallığından danışıblar. Fəal tələbələrə diplom və təşəkkürnamələr təqdim edilib.

Sonda pedaqoji təcrübənin yekunlarına dair metodik sərgiyə baxış olub.

***Naxçıvan Müəllimlər İnstitutunun Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

*Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin tənzimlənməsi, ölkədə tolerantlıq mühitinin formalaşdırılması və milli-mənəvi dəyərlərə qayğı siyasətinin nəticəsidir ki, bu gün respublikamızda cəmiyyətin dini-mənəvi ehtiyaclarına diqqət və qayğı ilə yanaşılır. Ümummilli liderimiz həmişə dövlət-din münasibətlərinin tarixi-milli ənənəyə və müasir hüquqi prinsiplərə uyğun olaraq tənzimlənməsinə, cəmiyyətdə vicdan azadlığının maneəsiz təminatına, dini-mənəvi, əxlaqi-etik dəyərlərin təbliğ və təşviq edilməsinə böyük əhəmiyyət verib. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ulu öndərimizin bu sahədəki fəaliyyətini uğurla davam etdirir. Bu səbəbdəndir ki, Azərbaycan dünyada tolerantlıq məkanı kimi böyük nüfuz qazanıb.*

## Naxçıvanda dini həmrəylik mühiti yaradılıb



Muxtar respublikada da mənəvi dəyərlərimiz qorunur, dini bayramlar yüksək səviyyədə qeyd edilir, ziyarətgahlar, məscidlər, məbədlər təmir və ya bərpa olunaraq dindarların istifadəsinə verilir.

Bu və digər məsələlərlə bağlı daha ətraflı məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin qeydiyyat və maarifləndirmə sektorunun aparıcı məsləhətçisi Müseyib Əlizadə ilə həmsöhbət olduq.

Müsahibim bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2003-cü il 28 fevral tarixli Fərmanı ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Naxçıvan Muxtar Respublikası Nümayəndəliyinin bazasında Dini Qurumlarla İş üzrə İdarə yaradılıb, Ali Məclis Sədrinin 2017-ci il 18 dekabr tarixli Fərmanı ilə idarənin əsasında Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi, 2017-ci il 28 dekabr tarixində isə agentliyin tabeliyində Mənəvi dəyərlər fondu yaradılıb. Ötən dövr ərzində bu dövlət qurumu böyük inkişaf yolu keçib.

Müseyib Əlizadənin sözlərinə görə, muxtar respublika ərazisində 211 məscid fəaliyyət göstərir və bu sahəyə dövlət qayğısının ifadəsidir ki, həmin məscidlər və dini abidələr bərpa olunub. Muxtar respublikamızda milli-dini ənənələri yaşatmaq, dini maarifləndirmə işini gücləndirmək, dini abidə və ziyarətgahları qorumaq və onlardan düzgün istifadə etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura yaradılıb. Şura tərəfindən dini bayramlar, ayinlər və yas mərasimlərinin milli-mənəvi dəyərlərimizə və ənənələrimizə uyğun şəkildə keçirilməsi məqsədilə tədbirlər görülür. Bununla yanaşı, Naxçıvan şəhərində və rayonlarda cənazələrin təmənnasız daşınması məqsədilə xüsusi cənazə avtomobilləri alınaraq istifadəyə verilib, qəbir yerlərinin və qəbirüstü abadlaşma tədbirlərinin qəbul olunmuş qaydalar daxilində həyata keçirilməsi təmin edilib. Muxtar respublika ərazisində qəbiristanlıqların yaşıllaşdırılması və təmizliyi diqqətdə saxlanılır, dindarlar və yerli inzibati ərazi dairələri üzrə nümayəndəliklər tərəfindən iməciliklər keçirilir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 noyabr tarixli qərarına əsasən qəbirüstü məzarların vahid və standart formada olması təsdiq edilib.

Müsahibim diqqətə çatdırdı ki, dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, eləcə də icmaların fəaliyyətlərinə ciddi nəzarətin təşkil olunması məqsədilə hər ay Naxçıvan şəhərindəki Sarvanlar məscidində 15 icma rəhbərinin iştirakı ilə iclaslar təşkil olunur. Agentlik, din xadiminin vaxtaşırı rayon və kənd məscidlərində olaraq oradakı dini durumu yaxından öyrənir, yas mərasimlərinin keçirilməsi, burada çıxış və təbliğatların aparılmasının qanuni çərçivəyə salınması, din xadimlərinin vahid geyim formasına riayət etmələrinə nəzarətin təşkili, dini və məzhəb ayrı-seçkiliyi zəminində baş verə biləcək halların vaxtında qarşısının alınması istiqamətində profilaktik tədbirlər həyata keçirir. Rayon və kəndlərdə fəaliyyət göstərən məscidlərin də təmizliyinə ciddi diqqət göstərilir, məscidlərdə İslam dininin əsaslarına uyğun olaraq ibadətlər təşkil olunur. Bunun nəticəsi kimi diyarımızda tolerantlıq prinsipləri ciddi şəkildə qorunur. Artıq məscidlərdə birgə ibadət təmin olunub, radikal və dini nifrət yayan cərəyanların yaranmasına qarşı müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə bölgələrdə maarifləndirmə iclasları təşkil edilib.

Müsahibimin dediyinə görə, Naxçıvanda ali dini təhsilli kadrların hazırlanması istiqamətində də ciddi addımlar atılır. 2015-ci ildən etibarən "Naxçıvan" Universitetində Dinşünaslıq ixtisası fəaliyyətə başlayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamın icrası ilə bağlı Naxçıvan Dövlət Universitetinin hamiliyə götürülmüş Ərəb dili və "Naxçıvan" Universitetinin Dinşünaslıq ixtisaslarında təhsil alan tələbələrlə görüşlər keçirilir. Agentlik tərəfindən Dinşünaslıq ixtisası üçün yaradılmış kitabxanaya 925-dən artıq dini təyinatlı ədəbiyyatlar verilib. Bununla yanaşı, dini fəaliyyətlə məşğul olanların biliklərinin artırılması da diqqətdə saxlanılır. Belə ki, agentlik Qazı yanında Şura ilə birlikdə dinin düzgün təbliğinə xüsusi diqqət yetirilməsi, din xadimlərinin biliklərinin artırılması, həmçinin dini təhsil almaq istəyən sakinlər üçün müvafiq məscidlərdə qadın və kişilərdən ibarət təkmilləşdirmə kursları təşkil olunub. İl ərzində 192 nəfər təkmilləşdirmə kurslarında iştirak edib və hazırda 135 nəfər kurslarda təhsil alır.

Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin əməkdaşı onu da qeyd etdi ki, 2018-ci ilin mart ayından etibarən agentliyin tabeliyində olan Mənəvi dəyərlər fondunun vəsaiti hesabına attestasiyadan keçmiş imamlar, imam naibləri və mütəvəlliyə aylıq maddi yardım ödənilib.

Artıq Ramazan ayı başa çatmaq üzrədir. Hər il olduğu kimi, bu il də mayın 21-də Naxçıvan şəhərində iftar süfrələri açılmışdır. Bu da muxtar respublikamızda Ramazan ayı, orucluq mərasimlərinin mənəvi dəyərlərimizə uyğun keçirilməsinin göstəricisidir.

Agentlik də İslam dinində müqəddəs sayılan bu ay üçün üzərinə düşən vəzifələri layiqincə icra etməyə çalışır. Belə ki, qurumun təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Kazım Qarabəkir Paşa məscidində təravih namazları qılınır. Məscidlərdə bu aya məxsus əhya gecələrinin saxlanması, Ramazan bayramı münasibətilə bayram namazının qılınması və şimiyyatların paylanması da agentlik tərəfindən təşkil ediləcəkdir.

Bu gün Naxçıvanda bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində də formalaşdırılmış model özünəməxsusluğu ilə seçilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında" 2019-cu il 24 may tarixli Sərəncamı dini dəyərlərə yüksək ehtiramın təzahürü olmaqla, muxtar respublikada da bu dəyərlərin daha geniş təbliğinə, mənəvi zənginləşməyə öz töhfəsini verəcək. Zaman keçdikcə ulu öndərimizin dövlət-din münasibətləri sahəsində irəli sürdüyü ideyaların, müdrik tövsiyələrin yeri və rolu istər ölkəmizdə, istərsə də muxtar respublikamızda daha aydın görünür.

**Pərviz HACILI**

## Bir zamanlar *“Qəcəmə daş”* oynardıq… *(Mənsur şeir)*

*Bu gündən dünənə… Baxır, hey baxıram. O uşaqlıq, bu uşaqlıq… O oyunlar, bu oyunlar… Uşaqların bir-birinə o sevgisi, bu sevgisi… Həyət dolu uşaqlar, həyat dolu uşaqlar. Məhəllələrin səsi-küyü, sevinci, şaqraq gülüşlü uşaqları. Nə oyunlar oynayardıq. “Qəcəmə daş”dan başlardıq. Bunun üçün saatlarla daş axtarıb yığar-yığar, daha sonra içindən yumruların, rənglilərin seçərdik ki, gözoxşayan, əlimizə yatan olsun… Qəcəmənin ən qəşəngi çaylaqlarda tapılardı. Hələ gözdən oğurlanıb daş yığmağa yollanardıq... Bu daşlarla günləri biz edərdik baş. Nə bir qüssə, nə bir kədər, deyə-gülə o qayğısız uşaqlığı bu daşlarla atar-tutar, barmaqların on çeşidli formasından keçirərək qalib olar, xoş saatlar yaşayardıq… Bu tək bir daş oyunumu? Xeyr. Bu daş oyunu zəkamızı artırardı, göz yaddaşı bəxş edərdi uşaqlara. Əllərimizin bir andaca hərəkəti saatlarla bir idmana bərabərdi. Daşlaşardı o mənalı uşaqlığımız bu daşlarda. Gün, ay nədir? – ötən, gedən. Qalan nədir? – tək xatirə…*





Tək “Qəcəmə daş”mı? Xeyr. “Evcik-evcik” oyunumuz da var idi. Daşıyardıq ev-eşikdən palaz-paltar, qab-qacaq, gəlinciklər küçəmizə. Bir guşəyə palaz açıb “evimizi” qurardıq biz. Biri ata, biri ana, biri də bala olardı. Çox sevimli ailəmizdə olanları evciklərə daşıyardıq. O illərin “Evcik-evcik” oyunundan yaddaşlara nələr hopub? Unudulmayan ən gözəli quru lavaşı ovub, üstünə də xırdalanmış pendir səpib “ailə” üçün hazırlanan yemək olub. Necə şirin yeyərdilər uşaqlar bu “yeməyi”. Uzun illər bu “yeməyi” xəyallardan ala bilmir… Bir sözümüz birimizə bəd gələndə küsüşərdik, küsülülük yuxumuzu ərşə çəkər, küsülülük bitənədək əzab çəkər, barışmağa can atardıq.

Binaların blokları “konsert zallarımız” idi. Pilləkənlər oturacaq. Qarşıdakı kiçicik bir “meydança” da çalanların, oxuyanların yeri idi. Musiqi məktəbində oxuyan uşaqların biri qarmon, nağarasın, biri tarın, kamançasın gətirərdi. Səsi olan oxuyardı. Yaşıdımız tamaşaçılar pilləkəndə çalanları alqışlardı. Oxuduğumuz yerdəcə mahnıların sözlərini unudardıq, bir andaca deyib-gülüb bir-birimizə qarışardıq. Açılardı birinci mərtəbədən bir qapı: “Ay uşaqlar, sizin əlinizdən biz hara gedək?” Açılardı ikinci mərtəbədən bir qapı: “Ay uşaqlar, bu nə səsdir?”… Qovulmaq qorxusu çökərdi üstümüzə. Böyüklərə nə var ki, alardılar pillələri əlimizdən, sevdiyimiz bu “zalı”. Başqa yerdə konsert olar? Tamaşaçı bəs harada əyləşərdi, çalanları, oxuyanları o haradan dinlərdi? Bax bunları düşünərək susardıq biz… Xatirələrə çevrilən mənzərələr bu günlərdə anılanda düşünürəm: – Böyüklərin hirsinə baxmayın, qoymasaydılar, qoymazdılar bizi o pillələrə. O səs-küyə tab gətirmək asanmıdır? Gözlərinin önündəcə olmaq üçün onlar bizə susurdular. Tək bununçün? Xeyr. Lap sonralar bildim ki, mən onlar bizi qapılardan dinləyirmiş… Sən demə, tamaşaçı tək məhəllə uşaqları deyilmiş. Qapının o tərəfində bizlə yaman qürur duyan neçə-neçə analar da, xalalar da var imiş…

“Yeddi daş”, “Ortada qaldı”, “Gizlən-qaç”, “Bənövşə, bəndə düşə”, “Ocaq yandı, su qaynadı”, “Əlimi siçan dişlədi”, “ Xan-vəzir”, “Tıx-tıx”, “Dama-dama”, “Fincan-fincan”, “Top divarda”dan danışmıram. İndi məhəllə uşaqları hər üzü şumal olan yeddi daş heç axtarmırlar. Onları üst-üstə yığıb topun güclü zərbəsilə heç ətrafa dağıtmırlar. İndi heç “Alma desəm aç, armud desəm, açma!”, – deyən də yoxdur. Dəqiqələrlə ortada qalıb topun zərbələrindən qurtulmaq üçün o yana-bu yana qaçan da yoxdur. Bənövşə də küskün düşüb, üz çevirib, heç yaxına gəlmir ki, bəndə düşə. Ocaq yanmır, su qaynamır. Məhəllələrdə indi bir zamanlar təbaşirlə çəkdiyimiz dama yoxdur. Yağışın, bir də qarın pozmasından məyuslandığımız damaları gör nə vaxtdır, “sel aparıb”. “Top divarda”’n enib, “Xan-vəzir” ta unudulub, “Tıx-tıx” yada düşmür, “Fincan-fincan” da oynanmır. İndi artıq o körpəcə əlləri də heç siçanlar dişləmir. Siçanlar yerini “maus”a verib. “Maus”larsa əl dişləmir, ruhu dişləyir. Kompüterlər, smartfonlar, planşetlər, bir də ki playstationlar əvəzləyib o gözəl oyunları. Xoş xatirə qaynağı o ziyansız, zərərsiz oyunları…

Tez-tez keçirəm məhəllələrdən. Yaman sükut çöküb məhəllələrə. Sanki uşaqlar yoxdur, hara isə gediblər. Lal sükut… Bu sükutu yaradan nə? Təbii ki, kompüter, telefonlar, planşetlər… Uşaqların əllərinə öz əlimizlə verdiyimiz xəstəliklər. Səsi çıxmasın, başı qarışsın, çöl-bayır istəməsin deyə, verdiyimiz telefonlar. Saatlarla kompüter qarşısına çökdürdüyümüz uşaqlar. Yorğun gözlər, əldən düşmüş sümüklər… Onurğası durğunluqdan “dil açan”, özü isə əsla usanmayan, doymayan uşaqlar…

Məhəllələrdə görürəm hərdən az-maz uşaq. Əllərində planşetlər, smartfonlar… Bir kənarda anaları söhbət edir qonşularla şirin-şirin. Uşaqlarsa saatlarla oyunlarda. Körpələri vəhşiliyə sürükləyən oyunlarda… Telefondan gələn səslərə bax, gör necə də ətraflarda gurlayır: atışmalar, çığırışmalar, vahimələr… Bir kənardasa yelləncəklər, on cür oyun qurğuları. Baxdıqca uşaq olmaq istəyirəm... Bir zamanlar heç tapmazdıq bunları. Ağaclardan kəndir asıb yelləncəklər qurardıq. Yelləndikcə nazikləşən kəndirlərsə qəflətən qırılardı. Üzüüstə yerə düşüb, yaman yaralanardıq... Hayqırmaq istəyirəm: – Ay uşaqlar, yerə qoyun telefonları, gəlin yellənin, atılın-düşün, gününüzü heç olmasa bu oyunlarla keçirin...

Ana susur, ata susur… Nə üçün görən? Özlərinin uşaqlıqda oynadığı oyunları görən niyə öyrətmirlər uşaqlara? Gözlərinin önündəcə övladları yuvarlanır ətalətə, xəstəliyə, süstlüyə… Bilə-bilə, görə-görə görən niyə susur ana? Olanlara, keçənlərə nə üçün göz yumur ata? Heç gec deyil, ay atalar, ay analar! Uşaqları aparın öz keçmişinizə. Oyunlara qonaq edin, onlara da daddırın o şirinliyi, savab edin. O illərdən uşaqlara bir pay verin… Edin, hökmən edin. Uşaqlara gələcəkdə bir zamandan danışmağa söz verin…

…Bir zamanlar “Qəcəmə daş” oynardıq. Başlayardı bu daşlardan oyunlarımız. Heç bitməzdi, tükənməzdi… Daşlaşıbdır uşaqlığımız o daşlarda. O kiçicik daşlardan başlayan oyunlarda… Harda görsən o daşlardan xatirələr düşür yada. Şirin-şəkər xatirələr. Uşaqlıqdan qalan gözəl xatirələr...

İndi deyin, necə uçmasın xəyal o illərə? Noğul kimi oyunlardan bu gün əsər qalmayan o illərə…

**✍ Mətanət MƏMMƏDOVA**

*Hələ qədim zamanlardan bir çox xəstəliklərin müalicəsində faydalı hesab edilən Darıdağ arsenli suyundan səmərəli istifadə olunması məqsədilə 1978-ci ildə burada Darıdağ Arsenli Su Müalicəxanası tikilib, 2005-ci ildə müasir tələblərə uyğun yenidən qurulub.*

## Yaşıllıq sahələri artırılır



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında müalicə turizminin inkişaf etdirilməsi üçün Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksinin yaradılması sahəsində müvafiq tədbirlər davam etdirilir.

Yeni yaradılacaq müalicə-istirahət kompleksi ətrafında sağlamlığın, estetik gözəlliyin təmin edilməsi və əlverişli ekoloji mühitin yaradılması üçün yaşıllaşdırma tədbirlərinə də xüsusi önəm verilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Culfa Rayon İcra Hakimiyyəti ilə birgə hazırladığı tədbirlər planına uyğun olaraq Darıdağ Arsenli Su Müalicəxanası ətrafındakı 7 hektar ərazidə toxumla əkin işləri aparılıb. Həmin əraziyə xas olan 50 kiloqram badamça, həmərsin, yemişan toxumları əkilib.

Bu tədbirdə nazirliyin xüsusi mühafizə statuslu idarələrinin əməkdaşları və rayon ictimaiyyətinin könüllüləri iştirak ediblər. Kompleks ətrafındakı ərazilərdə iqlim və relyef xüsusiyyətləri nəzərə alınaraq toxumla əkin işləri müntəzəm şəkildə aparılacaq.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

*Yurdumuzun nemətləri*

## Naxçıvan dağlarının əvəzedilməz ətri – kəklikotu

***Bu yaxınlarda havası sərin, suyu saf və təmiz, səsi ilə sakitlik bəxş edən çayı gur olan doğma kəndimizə getmişdim. Yaz aylarında kəndimizi daha da gözəlləşdirən bir səbəb də uca dağlarının yetirib-bitirdiyi, min bir dərdin dərmanı olan bitkiləridir. Elə mən də buraya gəlmişkən nanə, kəklikotu, quzuqulağı, turşəng və digər faydalı bitkilərdən yığmaq üçün yollanıram dağa.***



Bir tərəfində qoyun-quzunun mələşdiyi, digər tərəfində öz gözəlliyi ilə ətrafa hakim kəsilən lalələrin baş qaldırdığı vüqarlı və əzəmətli dağa yaxınlaşdıqca kəklikotunun, nanənin xoş ətri gəlir. Dağ ətəklərində bitən lalələrdən toplamaq məni həm uşaq kimi sevindirir, həm də zirvəyə qalxmaq həvəsimi artırır. “Lalələr” mahnısını zümzümə edə-edə gəlirəm cənnətməkan adlandırdığım, bütün xəstəliklərin müalicə məkanı kəklikotularla dolu çəmənliyə. Bura ayaq basmağa belə, qıya bilmirəm, çünki öz sadəliyi və ətri ilə insanı cəlb edən bitkiləri ayaqlamaqdan qorxuram. Daşların üstü ilə gəzə-gəzə kəklikotulardan toplayıram. Digər bitkilərlə müqayisədə hələ təzə və balaca olmasına baxmayaraq, ilk baxışda seçmək olur kəklikotunu. Ətrafında kolluqlar olmasa daha da inkişaf edərdi. Bu düşüncə ilə əyilib bir kəklikotu dərirəm. Onu yaxından qoxulamağa ehtiyac yoxdur. Ələ alan kimi bihuşedici ətri bütün ətrafı bürüyür və istər-istəməz valeh olursan.

Kəklikotu Naxçıvan dağlarına özünəməxsus bir çalar, xüsusi bir gözəllik bəxş edir. Məni bir sual düşündürür. Bu əsrarəngiz bitki ilk harada, necə meydana gəlib? Araşdıranda məlum olur ki, ondan IV-V əsrlərdə dərman kimi istifadə edilib. Qədimdə bu ot möcüzəli sayılıb, ilahələrin şərəfinə yandırılıb qurban verilib. Onun ətirli tüstüsü göyə qalxanda qurbanın allahlar tərəfindən qəbul edildiyinə inanılıb. Kəklikotu həm də zəhmətsevərlik rəmzi sayılıb. Belə hesab olunurdu ki, bu bitki insana nəinki sağlamlığını, hətta həyatını qaytara bilər. Yəqin ki, bu səbəbdən ürəkgetmə zamanı kəklikotunun tozunu iyləyir, onu ruha güc, qida verən bitki hesab edirlər.

Azərbaycanın zəngin floraya malik olması bu bitkinin dağlıq və aran yerlərdə, çəmənlərdə, meşələrdə bitməsinə səbəb olub. Kəklikotunun ölkəmizdə bir neçə növü yayılıb. Muxtar respublikamızda bu növlərin 17-si mövcuddur və demək olar ki, bütün bölgələrdə yetişir.

Maraqlı burasıdır ki, Naxçıvanda bitən kəklikotunun digər bölgələrimizdən fərqli olaraq qızılgül, limon ətri verən xüsusi növləri vardır. Bu kəklikotular özünəməxsus iyi, tamı ilə seçilir. Bizim kəndin dağlarında sadə kəklikotu geniş yayılsa da, digər növlərə də rast gəlmək mümkündür.

Naxçıvanlılar kəklikotudan təkcə dərman vasitəsi kimi yox, həm də mətbəxdə çox geniş istifadə edirlər. Kəklikotu qatılmış xörəklər iştahgətirici, həzmyaxşılaşdırıcı xüsusiyyətləri ilə seçilir. Onun müalicə məqsədilə arağını, çiçəklərindən isə mürəbbəsini hazırlayırlar. Əsasən, may, iyun aylarında toplanılan bitki qurudularaq qışa saxlanılır. Qurudulmuş kəklikotu satışa çıxarılır, ən yaxın dosta, qohuma pay verilir. Onun müalicəvi əhəmiyyətini bütün naxçıvanlılar yaxşı bilir. Qışda kəklikotunun çayını dəmləyib içmək həm soyuqdəymədən qoruyur, həm də zökəm və qrip kimi yoluxucu xəstəliklərin qarşısını alır. Sakitləşdirici təsirə malik bu bitki immuniteti artırır, ağciyər xəstəliklərinin, revmatizmin müalicəsində yararlıdır, diş ağrısını və öskürəyi kəsir, damarları möhkəmləndirir, qan dövranını nizamlayır, qanazlığını aradan qaldırır, əhval-ruhiyyəni yaxşılaşdırır və sair. El arasında “Allahın otu” da adlandırılan kəklikotunun bəşəriyyətin sağalmaz yarasına çevrilən xərçəng xəstəliyinə qarşı müalicəvi əhəmiyyəti də olduqca böyükdür. Lakin onun qəbulu bəzi xəstəliklər zamanı tövsiyə edilmir.

Hündürlüyü 10-18 santimetr, çiçəkləri xırda, çəhrayı-bənövşəyi rəngdə olan kəklikotunu kökləri ilə birlikdə toplamaq olmaz. Məsələn, adi kəklikotunun çətirlərinin yarıdan çoxu yetişəndə yığılır, toxumlarının tökülməsinin qarşısını almaq üçün yığım səhər və ya axşam aparılır. Naxçıvan dağlarından payıza qədər toplanılan kəklikotunun əsas təsiredici maddəsi isə tərkibində olan efir yağıdır. Bu yağın 10-80 faizi ətirli maddələrdən və müxtəlif növ turşulardan ibarətdir. Təbabətdə, konservləşdirmədə, kosmetika və əczaçılıq sənayesində də bu bitkidən geniş istifadə olunur.

Aparılan elmi tədqiqatlardan məlum olub ki, muxtar respublikada bitən kəklikotu növlərinin kimyəvi tərkibi başqa ölkələrdə bitənlərdən xüsusilə fərqlənir. Kəklikotunun yarpaq və çiçəklərindən alınan yağ təbabətdə antiseptik və dezinfeksiyaedici maddə, ağrıkəsici vasitə kimi, koçi kəklikotundan alınan efir yağından yeyinti məhsullarının tərkibində, ətriyyatda və eləcə də dərman kimi, qara-məryəm kəklikotundan alınan efir yağından ət və süd məhsulları, qənnadı məmulatlarında, spirtsiz içkilər və ətriyyatda geniş istifadə edilir.

İndi muxtar respublikamızda kəklikotunu həyətyanı sahələrdə, bağ və bostanlarda əkib-becərənlər, bu bitkinin qablaşdırılmış şəkildə satışını təşkil edən ailə təsərrüfatları da vardır.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

***İtmişdir***

Məmmədəliyeva İntizar Sahib qızının adına Babək rayonu, Kərimbəyli Kənd Uşaq Musiqi Məktəbi tərəfindən verilmiş H-004485 nömrəli diplom itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Mətanət Məmmədova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1495. Sifariş № 357